**Mustafayeva Sədaqət Ənvər qızı**

# NƏSİLLƏRƏ NÜMUNƏ

**"Professorlar, müəllimlər hər bir cəmiyyətin elitasıdır.
Bu insanlar ölkənin inkişafını,**

onun gələcəyini müəyyən edirlər”.
**İLHAM ƏLİYEV**
***Azərbaycan Respublikasının Prezidenti***

Müəllim, Azərbaycanın ilk, Şərqin ikinci qadın pedaqoji elmlər doktoru, profesoru, Beynəlxalq Pedaqoji Akademiyanın respublikamızda ilk və yeganə akademiki Rəfiqə Şahgül qızı Mustafayeva.

Bu titulları daşıyan qadın mənim Anamdır .

Ağlım kəsəndən onun adı ilə qürurlanmışam. “Rəfiqə müəllimənin qızı”. Uşaq bağçasından tutmuş, məktəbdə təhsil aldığım illərdə, sonralar ali məktəbdə, özü də mənə dərs deyəndə özümü xoşbəxt sanmışam. Mən Rəfiqə müəllimin qızıyam. Kənardan baxanlar – yoldaşlarım, tələbə dostlarım, tanış-biliş mənə bəxtəvərlik veriblər...

Amma heç kəs bilməyib ki, bu adı daşımaq məni böyük məsuliyyət qarşısında qoyub...

O qədər ciddi, tələbkar olub ki (indi də elədir), ağlım kəsəndən indiyədək (artıq nənə olsam da) gördüyüm işlər üçün onun qarşısında məsuliyyət hiss edirəm...

Anam mənim. Fikirıəşirəm ki, mənim anam o yox, bir başqası olsa idi, mən kim olardım? Kimi özümə nümunə bilər, kimə oxşamağa çalışardım?!

Yubileylərində, onunla keçirilən görüşlərdə, evimizə gələn məktəb yoldaşlarının xatirələrindən öyrənmişəm ki, məktəbdə həmişə fəal, əlaçı şagird olub. Bir il doğulduğu Balaxanı kəndindəki 69 nömrəli məktəbdə, sonra isə 204 nömrəli qız məktəbində təhsil alıb. IX sinifdə oxuyanda siniflərinə oğlanlar gəlib. Siniflərində 2 oglan olub.

V sinifdən pioner drujinasının sədri, sonra isə məktəbi bitirənə qədər şagird təşkilatının rəhbəri olub.

I sinifdə ona Dilbər müəllim dərs deyib. Sol əllə yazmasına mane olmayıb. Nədənsə yarım ildən sonra müəllimləri dəyişib, Bikə adlı bir qadın Dilbər müəlliməni əvəz edib. Rəfiqəni sağ əllə yazmağa məcbur edib. Görünür? bu səbədən xətti gözəl deyil. Elə indi də deyir ki, müəllimim məni zorla sağ əllə yazmağa məcbur etməsəydi, yaxşı xəttim olardı.

2-3-cü siniflərdə isə indi də adını sevə-sevə çəkdiyi Firuzə Məmmədovanın şagirdi olub. O, Rəfiqəni övladı kimi sevib. Bu gözəl müəllim-şagird münasibəti sonralar da davam edib. Hətta Rəfiqənin namizədlik dissertasiyasının müdafiəsində də iştirak edirdi...

204 saylı məktəbdə direktorları Əfidə Babayeva – Balaxanıda tanınmış tələbkar bir rəhbər olub. Həm də 5-6-7-ci siniflərdə ədəbiyyat dərslərini deyib. İşi çox olduğundan, bəzən Rəfiqəyə dərsini “əvəz” etməyi tapşırırmış. O da özünü müəlliminə oxşatmağa çalışaraq “dərs keçirmiş”.

Rəfiqə VIII sinifdə oxuyanda Ağalar Əzimov adlı Böyük Vətən müharibəsi iştirakçısı onlara ədəbiyyat dərsi deməyə başlayıb. Və Rəfiqənin bütün həyatı ədəbiyyat dərslərinə köklənib... Hər gün 2 saat dərs, sonra da ədəbiyyat məşğələləri. Boş vaxtlarda inşa yazı yazmağa hazırlıq... Onun üçün ən asan dərs inşa yazı dərsi olub...

Respublikanın tanınmış şairləri, yazıçıları, artistlər məktəblərinə gəlirmiş. Bütün görüşlərdə də Rəfiqə çıxış edirmiş... O vaxtlar Səməd Vurğunun adı dillər əzbəri idi. Ağalar müəllim onu da məktəbə dəvət edib. Bu, Balaxanının həyatında böyük hadisə olub. Rəfiqə həmin görüşdə “Qoca Şərqə günəş doğur” şeirini əzbər deyib. Şair Rəfiqənin şeir oxumağını çox bəyənib, alnından öpüb. Hətta sonra qonşu Sabunçu rayonundakı 155 saylı məktəbdə görüş zamanı “hörüklü, qara qız”ın çox gözəl şeir söylədiyini qeyd edib...

Şair Rəsul Rza ilə görüş keçirilərkən Rəfiqə “ Kür qırağının əcəb seyrəngahı var, Yaşılbaş sonası yaxşı ki, yoxdur” şeirini oxuyub. Sonra da şairə sual verib ki, nə üçün “yaşılbaş sonası yaxşı ki, yoxdur” yazmısınız?. Şair bir az əsəbiləşən kimi olub. “Sənə söyləyiblər ki, belə sual ver?” – deyib. Rəfiqə isə “Mənə heç kəs söyləməyib, özüm belə düşünürəm” - deyə cavab verib...

Sabunçudakı Mədəniyyət sarayında Hüseyn Mehdinin “Səhər” romanının müzakirəsində əsərin əsas təhlilçisi Rəfiqə olub...

X sinfi bitirəndə 14 nəfər olublar. Bir-birinin həvəsinə 7 nəfər – 6 qız, bir oğlan Azərbaycan Dövlət Universitetinə (indiki BDU) sənəd verməyə gəlirlər. Sənədləri qəbul edən Nərgiz xanım “Filologiyaya daxil olmağa nə var, hünəriniz var, jurnalistikaya sənəd verin” - deyir.

Rəfiqə dərhal sənədlərini geri götürür, ərizəsini dəyişib, jurnalistika fakültəsində oxumaq istədiyini yazır.

Beləcə, 5 il Azərbaycanın ən görkəmli ali təhsil ocağında – Azərbaycan Dövlət Universitetində respublikanın tanınmış alımlırindən dərs alıb. O, əziz müəllimləri Mir Cəlal Paşayev, Cəfər Xəndan, Həsən Şahgəldiyev, Nəsir İmanquliyev, Şirməmməd Hüseynov, Məmməd Arif, Bəxtiyar Vahabzadə, Anya Rzayeva və başqalarının adlarını bu gün də hörmətlə yad edir...

Yəqin ki, bu alimlərin təsiri ilə anamın təbiətində belə ciddilik, tələbkarlıq yaranıb...

Əmək fəaliyyətinə ibtidai sinif müəllimi kimi başlayıb. Onda mənim 4, bacımın 1 yaşı olub. Mən uşaq bağçasına, bacım isə körpələr evinə getmişik...

Ağlım kəsəndən evimizə anamın şagirdləri gəliblər. Onlar anamı çox sevirdilər. O da bütün qüvvəsini uşaqlara daha çox bilik verməyə sərf edirdi. Özü indi də o ilk şagirdlərinin çoxunun adlarını xatırlayır: Bakıxan, Əli, Tahirə, Sənubər, Salar...

Amma bu iş onu təmin etməyib. Ədəbiyyat müəllimi olmaq istəyirdi. Nəhayət, arzusuna çatıb. 182 saylı məktəbdə ədəbiyyat müəllimi kimi fəaliyyətə başlayıb. Bu gün də həmin məktəb onun üçün əziz bir məkandır. O dövrdəki şöhrətini saxlamasa da, həmin məktəbi doğma evi bilir.

Orada dərs dediyi illərdə şagirdlərindən 17 nəfəri məktəbi “qızıl”, bir nəfəri isə “gümüş” medalla bitirib. 54 şagirdi sevimli müəllimlərinin yolu ilə gedərək, ədəbiyyat müəllimi olub, respublikanın müxtəlif məktəblərində çalışıblar. Bu, respublikamızın təhsil tarixində analoqu olmayan hadisədir. Rəfiqə xanım bundan böyük qürur hissi duyur!

Onun iş təcrübəsi bütün Binəqədi rayonunda, sonra isə Bakı Müəllimləri Təkmilləşdirmə İnstitutunun baş metodisti, qocaman müəllim İbrahim Zülfüqarovun səyi ilə Bakı müəllimləri arasında yayılıb...

Bu müddət ərzində Rəfiqə müəllimə respublikanın tanınmış şair və yazıçılarını 182 nömrəli məktəbə qonaq çağırıb. Binəqədidəki 182 saylı məktəbin şöhrəti Azərbaycana yayılıb.

Qısa zaman ərzində Xaıq şairi Süleyman Rüstəm, sonralar elmi rəhbəri olmuş yazıçı Mir Cəlal Paşayev, Mirzə İbrahimov, Nəbi Xəzri, Nurəddin Babayev, Firudin Hüseynov, Tofiq Əfəndiyev, Xalid Əlimirzəyev, Cabir Novruz, Ağacavad Əlizadə, Oqtay Rza, Firudin Ağayev məktəbin qonağı olublar. Bu görüşlər, sözün əsl mənasında, anamın hünəri, savadı, bacarığı, təşkilatçılıq qabiliyyəti nəticəsində baş tuturdu. Cavan qadının enerjisi, öyrətmək, öyrənmək istəyi aşıb-daşırdı.

Ev işləri, bizə qayğı, dərslərimizlə məşğul olmaqla yanaşı, o özü də oxuyub öyrənir, aspiranturaya hazırlaşırdı...

Müəllimin fəaliyyətinin sədası Təhsil Nazirliyinə çatmışdı. Günlərin birində böyük pedaqoq, unudulmaz alim, o dövrdə Respublika Təhsil naziri olan akademik Mehdi Mehdizadə bir qrup işçisi ilə 182 saylı məktəbə gəlmiş, Rəfiqə Mustafayevanın fəaliyyəti ilə maraqlanmışdı... Bu, Azərbaycanın təhsil tarixində görünməmiş hadisə idi.

Dərs vaxtı bitmiş olduğundan anam məktəbdə deyilmiş. Direktorun təklifi ilə fəal şagirdlərdən biri, Telli adlı qız ədəbiyyat kabinetini açmış, nazir burada şagirdlərin köməyilə yaradılmış zəngin kitabxana, şair və yazıçıların məktəblilər tərəfindən çəkilmiş portretləri, kabinetdə saxlanan inşa dəftərləri ilə tanış olmuş, həmin şagirdin onun suallarına verdiyi cavablardan cox razı qalmış, direktora müəllimin sabah Nazirliyə gəlməsini tapşırmışdı.

Ertəsi gün işdən sonra Rəfiqə müəllimə nazirin görüşünə getmişdi.

Proqram-Metodika İdarəsinin rəisi İmran Məmmədovun da iştirak etdiyi söhbətdə nazir Rəfiqə müəllimə Ə.Əfəndizadənin redaktorluğu ilə çap olunan "Azərbaycan dili və ədəbiyyat" məcmuəsi haqqında rəy yazmağı tapşırmışdı.

- Sizə bu iş üçün nə qədər vaxt lazımdır? İki ay bəsdir?

- Yox, iki ay çoxdur, bir həftəyə hazırlayaram. (Nazirin etimadı onu çox sevindirmişdi).

...Rəy nazirin çox xoşuna gəlmişdi. Aradan bir müddət keçdi. Nazirin göstərişi ilə "Xalq şairi Səməd Vurğun" adlı tədris filminin çəkilişinə başlanmış, bu filmdə Rəfiqə müəllim və şagirdləri də çəkilmişdilər. Bu ilk tədris filmində şagirdlərin arasında mən də var idim...

...Evimizdə yeni bir "köməkçi" meydana gəlmişdi. Anam çoxdan arzuladığı "Erika" markalı yazı makinası almışdı. İş təcrübəsinə dair məqalələri indi həmin makinada yazırdı. Mən və bacım da anama kömək etmək arzusu ilə makinada yazmağı öyrənirdik...

Aspiranturaya daxil olması anamın ad-sanını daha da artırdı. Məqalələri respublikanın qəzet və jurnallarında, hətta Moskvada çıxan "Literatura v şkole" jurnalında da cap olunur, səsi həm respublika, həm də ittifaq konfranslarından, pedaqoji mühazirələrindən gəlirdi.

Azərbaycan televiziyası ilə nümunəvi ədəbiyyat dərsləri aparırdı və bu onu bütün ədəbiyyat müəllimlərinə tanıtmışdı.

Namizədlik dissertasiyasının müdafiəsinə hazırlaşırdı...

Həmin möhtəşəm gün yaddaşıma yazılıb...

Azərbaycan Pedaqoji İnstitutunun böyük akt zalında bir yer belə boş qalmamışdı. Dəhliz də gələnlərlə dolmuşdu...

Böyük uğurla baş tutan müdafiəyə o qədər gül gətirmişdilər ki, zal gül dənizinə dönmüşdü...

Ailəmiz üçün doğma olan Azərbaycan Elmi Tədqiqat Pedaqoji Elmlər İnstitutunda (indiki Təhsil İnstitutu) çalışır, tədqiqatlarını davam etdirir, məqalələr yazır, proqramlar tərtib edirdi...

İllər sürətlə keçir, mən də, bacım da ali təhsil alırdıq.

Bu illər ərzində anam "Qabaqcıl Maarif Xadimi" döş nişanı, "Yubiley medalı", "Qırmızı Əmək Bayrağı Ordeni" ilə təltif edilmişdi. Pedaqoji elmlər namizədi, baş elmi işçi adlarına layiq görülmüşdü...

Bir gün Anam Müəllimləri Təkmilləşdirmə İnstitutunun (Sonralar Azərbaycan Müəllimlər İnstitutu) elan etdiyi müsabiqədə iştirak etdi, baş müəllim qəbul edildi... Daha sonra dosent və Pedaqogika kafedrasının müdiri seçildi...

Bu qədər gərgin işləsə də, bizim təhsilimizi unutmurdu. Hər ikimiz elmlər namizədi adını alıb, ali məktəblərdə işləməyə başlayandan sonra bir az rahat nəfəs aldı... Siz mənim yolumu davam etdirməli,yaxşı müəllim olmalısınız! - deyirdi.

Özü isə dincəlmədən məqalələr yazır, kitablar çap etdirirdi...

Onu təkidlə Mərkəzi Komitəyə işə dəvət edirdilər. Anam isə "yox, mən doktorluq dissertasiyası müdafiə edəcəyəm", deyə, tədqiqatlarını davam etdirirdi...

Tbilisidə doktorluq dissertasiyasının müdafiəsi, sonralar professor elmi adı və özünün çox sevdiyi "Respublikanın Əməkdar müəllimi" fəxri adını alması həyatının əlamətdar anları idi.

Rusiyanın paytaxtına növbəti elmi səfəri zamanı onu Beynəlxalq Pedaqoji Akademioyanın həqiqi üzvü seçdilər. Bu onu çox sevindirdi. Bu da respublikada ilk dəfə idi. Daha bir ilk!

23 il kafedra müdiri işlədikdən sonra Azərbaycan Təhsil Problemləri İnstitutunda (indiki Təhsil İnstitutu) işlədi və son üç kitabını orada yazdı.

Mir Cəlal Paşayev yaradıcılığında gənclərin tərbiyəsi məsələləri (Bakı 2007), Son 20 ildə çap olunanlardan nümunələr (Bakı 2011), Gənclər siyasəti XXI əsrdə: ali məktəb tələbələrinin tərbiyəsinin bəzi məsələləri (Bakı 2016).

Ümumilikdə, Rəfiqə Mustafayevanın 24 kitabı, dərsliyi və dərs vəsaiti çap olunub.

70 illik yubileyi münasibətilə Respublika Pedaqoji kitabxanasının işçiləri ilə akademikin fəaliyyətini əks etdirən biblioqrafik kitabça hazırladıq. Rəfiqə xanımın fəaliyyətini əks etdirən bu toplunu bir də nəzərdən keçirəndə həyatını gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş bu qadının, ananın, böyük müəllimin, alimin hünərinə heyran qaldım.

Rəfiqə xanım pedaqoji fəaliyyətə başlayandan bu günədək haqqında saysız-hesabsız yazılar yazılıb.

Rəfiqə Mustafayevanın yaradıcılıq fəaliyyəti, görkəmli alimlərin, şagirdləri, tələbələri, dissertant və aspirantlarının, birlikdə işlədiyi insanların onun haqqında yazdığı xoş sözlər 70 illik yubileyi münasibətilə çap edilən "Azərbaycan pedaqogikasının sərv ağacı" adlı topluda cəmlənib.

Gənc Rəfiqə müəllimə haqqında mətbuatda ilk oçerki isə professor Şəmistam Mikayılov yazıb... Sonra isə "Ədəbiyyat" qəzetində dövrün məşhur yazarlarından olan Ağacavad Əlizadə "Rəfiqə" adlı tam bir səhifə həcmində gözəl bir yazı ilə çıxış etmişdir.

Bir neçə nümunə ilə kitablarda haqqında yazılmış məqalələrdən bəhs etmək istəyirəm:

Oqtay Qasımovun "Bizim və sizin Balaxanı" (Bakı, 2002) kitabından: "Elm işığı, fədakar pərvanələr" bölməsində "Rəfiqə Şahgül qızı Mustafayeva" adlı yazıdan nümunə: "Əxlaqi ilə xülqü vəhdət təşkil edən, bilikdə nümunə, çətin zamanlarda insanlara dayaq, halal ruzisini əldə etməkdə və özünəməxsus mərtəbəni tutmaqda mübariz, dinində möhkəm və mülayim, imanında və dostluğunda şübhəyə düşməyən, tamahdan uzaq, elmə həris, alimliyi aləmlərdən uca tutan, təmənnasız, gözəl və təmiz əməllər təcəssümü olan mehriban insandır"(s. 166-168);

Allahverdi Eminovun "XX əsrin 20 böyük azərbaycanlı pedaqoqu" (Bakı, 2002) kitabından isə bir cümləni bura yazmaq istəyirəm: "Professor Rəfiqə Mustafayevanı mən görkəmli alim, bütöv şəxsiyyət sayıram və onu XX əsrin seçmə, əsl azərbaycanlı qadın pedaqoqu timsalında görürəm" (s.81).

Qəzet və jurnal məqalələrinin sayı çox olduğu üçün ancaq böyük nəşrlərdə yer almış materialların adlarını qeyd edəcəyəm:

"Varlıq" Ensiklopedik toplu, Bakl, 1998, s. 154; Azərbaycan Qadın Ensiklopediyası, Azərbaycan Milli Ensiklopediyası Nəşriyyat-Poliqrafiya Birliyi, Bakı, 2002, s.304; Azərbaycanın tanınmış qadınları, Bakı, "Adiloğlu", 2002, s.196; Azərbaycan qadınları, Ensiklopedik toplu (II) Bakı, 2002, s.180; Azərbaycanın Elmı elitası, Elmlər doktorları, Məlumat kitabçası, Bakı, 2011, s.159.

İndi təqaüdə çıxıb. Amma dissertantları, keçmiş şagird və tələbələri üçün bir nümunə məktəbi olaraq qalır. Onlar tez-tez evimizə zəng vurur, anamla uzun-uzadı söhbət edir, ən müxtəlif mövzularda məsləhətlər alır, bayramlarda və ad günlərində böyük məhəbbətlə iştirak edirlər. Çoxuna bacı deyirəm...

Uzun illər Balaxanı qəsəbəsində keçirilən tədbirlər onun aparıcılığı ilə baş tutub. "Qadın ili" tədbirində Şövkət Ələkbərova, Maral Rəhmanzadə, Nəsibə Zeynalova və bir çox görkəmli qadınlar Balaxanıya gəlmişdilər və bu görüşü məhz balaxanılıların dəvəti ilə anam idarə etmişdi. Fasilədə Şövkət xanım anama sual vermişdi: "Xanım, Siz, təsadüfən, cavanlıqda oxumamısınız? Gözəl səsiniz var." Anam çox az adamın bildiyi bir faktı gözəl müğənniyə söyləmişdi. IV sinifdə oxuyanda uşaq xorunda Qara Qarayevin və Fikrət Əmirovun bəstələdikləri "Əcəb ağ gündədir mənim Vətənim" mahnısını ifa edərək, müsabiqədə qalıb gəlmiş və dahi bəstəkar Ü.Hacıbəyovun göstərişi ilə səsi val yazısına köçürülmüşdü...

Bu tədbirdə iştirak edən Maral Rəhmanzadə çox təkidlə onu emalatxanasına dəvət etmiş, şəklini çəkmək istəmişdi... Lakin işi çox olduğundan, anam buna vaxt tapmamışdı.

Amma sonralar tanınmış balaxanılı rəssam Arif Mərdan onun portretini işləmiş, Əzizbala Balaxanılı Balaxanı saytında Rəfiqə xanım haqqında geniş məlumatla birlikdə yerləşdirmişdir.

Balaxanıda keçirilmiş və Rəfiqə xanımın uğurla idarə etdiyi daha bir maraqlı məclis Balaxanıdan olan Cahangir Cahangirovun yubiley məclisi idi. Burada bəstəkar üzünü məclisə tutmuş, balaxanılılardan təhsil aldığı 8 saylı məktəbə öz adının verilməsini arzuladığını demişdi... Tədbirin sonunda anama minnətdarlığını bildirmiş, arzusunu unutmamalarını xahiş etmişdi...

Qəsəbənin tanınmış ziyalılarından olan Əmrah Dadaşov (BDU-nun professoru) anamın tərtib etdiyi məktubu lazımi mənbələrə çatdırmışdı. Qəsəbə sakinlərinin xahişi nəzərə alınmış, 8 saylı məktəbə böyük bəstəkarın adı verilmişdir.

Balaxanılılar öz məşhur övladları ilə fəxr edirlər.

Rəfiqə xanımın 60 və 70 illik yubileyləri qəsəbədə böyük təntənə ilə qeyd edilib. Əmrah Dadaşovun ona həsr etdiyi "Əziz yubilyarımız" şeirinə balaxanılı, "İrs" folklor ansamblının bədii rəhbəri Sidqi Mustafayev musiqi bəstələmiş və yubiley tədbirində bu səmimi mahnı ifa olunmuşdu. Yeri gəlmişkən, həmin tədbirdə professor Vidadi Xəlilovun Rəfiqə xanım haqqında yazdığı "Alimlər anası" şeirinə bəstəkar Tariyel Məmmədovun bəstələdiyi mahnı da böyük uğurla "İrs" ansamblı tərəfindən ifa olundu.

Balaxanıda keçirilən 70 illik yubiley tədbirində isə hamımız böyük bir sürprizlə qarşılaşmışdıq. Bu tədbirə unudulmaz Xalq şairi Bəxtiyar Vahabzadə gəlmiş və vaxtilə sevimli tələbəsi olmuş Rəfiqəni təbrik etmişdi.

Sən demə, Əmrah Dadaşov universitetdə dəvətnamələri dekanlığa gətirəndə şair keçmiş tələbəsinin şəklini görüb tanımış, yubiley günü tədbirin keçirildiyi məclisə gəlmişdi. Bu gəliş Balaxanıda böyük hadisəyə çevrilmişdi...

Lap bu yaxınlarda Binəqədidəki 182 saylı məktəbi 50 il əvvəl bitirmiş şagirdlərindən biri anama zəng vurmuşdu. Hal-əhval tutdu. Sonra "Rəfiqə müəllimə, sinfimizin uşaqları yığışıb, Sizinlə görüşmək istəyirik. Gələrsiz?"- dedi. Anam, səhhəti qaydasında olmasa da, "gələrəm"- dedi.

Bu görüşü təsvir edə bilmirəm. Hər biri anamı daha çox qucaqlamağa, onunla daha çox şəkıl çəkdirməyə, onunla bağlı xatirələrini danışmağa çalışırdı. Maraqlısı bu idi ki, üstündən 50 il keçsə də, anam hər birini tanıdı, adını dedi... Anam onlara, onlar da müəllimlərinə bu illər boyu əldə etdikləri barədə hesabat verdilər. Düşündüm ki, bu qədər məhəbbəti qazanmaq üçün yəqin hər kəs şagirdlərini anam kimi, ana kimi ürəkdən sevməli, onları övladlarından ayırmamalıdır...

Qoy anamın həyat yolu gələcək nəsillər üçün nümunə olsun, öz əsərləri, haqqında yazılanlar hələ uzun illər şagirdlər, tələbələr, müəllimlər, elm adamları üçün gərəkli olsun...

**РЕЗЮМЕ**

Статья посвящена первой в Азербайджане, второй на всем Востоке женщине – доктору педагогических наук, профессору, академику Международной Педагогической Академии Мустафаевой Рафиге Шахгюл гызы. Описываются этапы ее жизни, научные достижения, высказывания о ней видных ученых-педагогов, общественных деятелей, литераторов.

**SUMMARY**

The article is devoted to the first in Azerbaijan, the second in the whole East to the woman - the doctor of pedagogical sciences, professor, academician of the International Pedagogical Academy Mustafayeva Rafige Shahgul. Describes the stages of her life, scientific achievements, statements about her prominent scientists, educators, public figures, writers.

***Açar sözlər:*** *pedaqoq, professor, akademik, ana, müəllimlər müəllimi*

*Ключевые слова: педагог, профессор, академик, мать, учитель учителей*

*Keywords: teacher, professor, academician, mother, teacher of teachers*

***Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Ağakişiyev Əliheydər Yunis oğlu***